**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANIN CƏNUB BÖLGƏSİNİN DAVAMLI İNKİŞAF POTENSİALININ QİYMƏTLƏNDİRİLMƏSİ

İxtisas: 5902.17 – Davamlı inkişafın idarə edilməsi

Elm sahəsi: Siyasi elmlər

İddiaçı: **Fəqan İlham oğlu Tahirli**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2024**

Dissertasiya işi Azərbaycan Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dayanıqlı inkişafın planlaşdırılması və idarə edilməsi" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: Akademik
**Urxan Kazım oğlu Ələkbərov**

Rəsmi opponentlər: AMEA-nın müxbir üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor
**Vaqif Rza oğlu İbrahimov**

siyasi elmlər doktoru, dosent
**Elnur Bəybala oğlu Hacıalıyev**

Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Afət Ağabala qızı Güləliyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən BFD 2.30 Dissertasiya şurası

Dissertasiya şurasının sədr müavini: ____________ Fəlsəfə elmləri doktoru, professor
**Əlikram Zakir oğlu Abdullayev**

Dissertasiya şurasının elmi katibi: ____________ Siyasi elmlər doktoru, dosent
**Sevda Ağamirzə qızı Əliyeva**

Elmi seminarın sədri: ____________ Siyasi elmlər doktoru, professor
**Ziyafət Ziya qızı Həbibova**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Davamlı inkişaf və onun qiymətləndirilməsi bütün dünya ölkələrinin siyasətinin formalaşmasında əsas fon rolunu oynayır. Ümumiyyətlə, davamlı inkişaf nəsillərarası rifahı tarazlaşdırmaq və nəsillərarası ümumi rifahı maksimum dərəcədə artırmaq üçün iqtisadi, ekoloji və sosial inkişafın əlaqələndirilməsi kimi müəyyən edilir. Buna görə də, tədqiqatın məqsədi Azərbaycanın cənub bölgəsinin davamlı inkişaf potensialının iqtisadi, ekoloji və sosial ölçülərin inteqrasiyası nöqteyi-nəzərindən qiymətləndirmək və sonra davamlı inkişafın vəziyyətini daha yaxşı izləməkdir.

Davamlı inkişafın təmin edilməsi Azərbaycan hökumətinin qarşıya qoyduğu əhəmiyyətli prioritetlərdəndir. Davamlı inkişaf özlüyündə ölkə iqtisadiyyatının hərtərəfli və şaxələndirilmiş şəkildə inkişafını, sosial sahələrin innovativ əsaslarda qurulmasını ehtiva edir. İqtisadi çərçivədə neft sektoru gəlirləri hesabına qeyri-neft sektoruna böyük sərmayələrin yatırılması ilə ölkənin davamlı və dayanıqlı inkişafı dəstəklənir. Cənab Prezident İlham Əliyev tərəfindən təsdiqlənmiş dövlət proqramları regionların davamlı inkişafının təmin edilməsini hədəfləyir. Dövlət proqramlarının məntiqi ardıcıllıqla həyata keçirilməsi iqtisadi fəallığı, sosial quruculuğu artırır, regionlarda yaşayış səviyyəsinin keyfiyyətini qaldırır. Bu cür müsbət iqtisadi-sosial proseslər ölkəni daim tərəqqiyə aparır.

Müstəqil Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyevin ideyalarının həyata keçirilməsində Prezident İlham Əliyevə dəstək olmaqda Birinci vitse-prezident Mehriban Əliyevanın böyük rolu olub. O, həmçinin Azərbaycanın dünyaya tanıdılmasında, Ulu Öndərin humanist ənənələrinin və ideyalarının böyük əzm və sədaqətlə ucaldılmasında misilsiz xidmətləri olub. Prezident İlham Əliyevin təşəbbüslərinin dəstəklənməsinə Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu mühüm töhfələr verib.

Bu gün Azərbaycanda davamlı və dayanıqlı inkişaf dövlətin məqsədyönlü və nəticəyönümlü siyasəti ilə baş verir. Cənab Prezident İlham Əliyevin sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də insan amilinə yüksək qiymət verildiyini, xalqın rifahının daha da yüksəldilməsinin daim diqqətdə saxlanıldığını görürük. Sənəddə bazar iqtisadiyyatının inkişafı,

rəqabətə davamlı iqtisadi sistemin, inklüzivliyin, sosial ədalət prinsiplərinə əsasında qurulmuş cəmiyyətin, rəqabətli insan kapitalının davamlılığının qorunması, işğaldan azad edilmiş ərazilərin reinteqrasiyası, bərpa-quruculuq işlərinin sürətləndirilməsi məqsədilə prioritetlər müəyyən edilmişdir.

Azərbaycanın Lənkəran-Astara iqtisadi rayonunda davamlı inkişafın təmin edilməsi həm sosial-iqtisadi, həm də təbii-ekoloji aspektləri əhatə edən çoxşaxəli amillər kompleksi ilə ayrılmaz şəkildə bağlıdır. Bu regionun davamlı inkişafı regional əhali çətinliklərinin həllinə, sosial-iqtisadi tərəqqi ilə ekoloji mühafizə arasında tarazlığın yaradılmasına və region sakinlərinin həyat şəraitinin yaxşılaşdırılmasına yönəlmiş mürəkkəb prosesi ifadə edir.

Davamlı inkişaf strategiyalarını təşkil edərkən regionun özünəməxsus iqtisadi xüsusiyyətlərini, sosial strukturunu və əhalinin fərqli düşüncə tərzini nəzərə almaq mühüm əhəmiyyət kəsb edir. Nəzərə alsaq ki, Lənkəran-Astara iqtisadi rayonu düzənlikdən tutmuş dağlıq ərazilərə qədər müxtəlif coğrafiyalardan ibarətdir və hər birinin fərqli ehtiyac və məhdudiyyətləri vardır.

Dissertasiyanın mövzusu mühüm aktuallıq kəsb edir, çünki o, Azərbaycanın Cənub regionunun davamlı inkişaf potensialını qiymətləndirmək məqsədi daşıyır.

Dissertasiya işində müəllif Ələkbərov U.,[1] Rəcəbli H.[2], Hüseynov S.,[3] Əhmədli T.M.,[4] Qəribova E., Rüstəmova V.,[5],

---

[1] Ələkbərov U. "Davamlı inkişaf naminə kadr potensialının təkmilləşdirilməsi: Azərbaycan modeli" 2018 – 68 s.; Ələkbərov U. Davamlı inkişaf və ekoloji sivilizasiyanın idarə edilməsinin əsasları. – Bakı: “Təhsil” – 2017 – 176 s.; Ələkbərov U. Davamlı İnsan inkişafı və ekoloji sivlizasiyanın əsasları. Ali məktəblər üçün dərslik. Bakı, "Təhsil" – 2013 – 224 səh.; Ələkbərov U. İnsan inkişafının əsasları. Ali məktəblər üçün dərslik. Bakı, "Azpoliqraf" – 2016 – 280s.

[2] Rəcəbli H., “Sosial sahələrin idarə edilməsi”, “Bakı Mətbəəsi”ASC, Bakı – 2022 – 396 səh.

[3] Hüseynov S. “Milli iqtisadiyyat: modernləşmə və davamlı inkişaf”–2012–89

[4] Əhmədli T.M., Məmmədzadə E., “Lənkəran-Astara rayonlarının torpaq tiplərində baş verən fiziki-kimyəvi dəyişikliklərin və eroziya meyillərinin öyrənilməsi” // Elm və İnnovativ Texnologiyalar Jurnalı Nömrə – 26 – 2023 – 12s.

[5] Qəribova E., Rüstəmova V., “Azərbaycan daxili miqrasiya və urbanizasiyanın sosial aspektləri”, Analitik hesabat // Azərbaycan Barometri №2, Sosial Tədqiqatlar Mərkəzi – 2020 – 72 səh.

Məmmədov H.Ə.[6] Talıbov S.Ə.,[7] Tahirova H.M.,[8] Şəkərəliyev A.Ş.,[9] Paşayev N.Ə., Ağakişiyeva G.R.,[10] Səfərov R.,[11] kimi tədqiqatçıların əsərlərindən bəhrələnmişdir.

Sakit Hüseynovun "Milli iqtisadiyyat: modernləşmə və davamlı inkişaf"adlı kitabından mövzu ətrafında tədqiqat zamanı istifadə edilmişdir. Davamlı inkişafın müxtəlif aspektləri xarici tədqiqatçıların əsərlərində də geniş şəkildə işıqlandırılır. Davamlı inkişafın sosial-iqtisadi aspektlərini araşdıran qərb tədqiqatçılarından Khalid, A. M.,[12] Emission J. G.[13] Allen, C., Metternicht, G., & Wiedmann, T.[14] və başqalarının adını qeyd etmək olar.

Breuer, A., Janetschek, H., & Malerba, D. "Translating sustainable development goal (SDG) Interdependenciesinto policy advice: Sustainability"[15] adlı elmi tədqiqatında istifadə olunmuşdur. Kitab müasir dövrdə həyata keçirilən davamlı inkişaf fəaliyyətlərini

---

[6] Məmmədov H.Ə. Dayanıqlı inkişaf konsepsiyası və onun səciyyəvi cəhətləri // NDU, Elmi əsərlər. İctimai elmlər seriyası. Naxçıvan: Qeyrət nəşriyyatı – 2014 – № 9(65) –136

[7] Talıbov S.Ə., "Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda turizmin inkişafina təsir edən investisiyalar" // Baki Universitetinin Xəbərləri, №4 Təbiət elmləri seriyası – 2015 –148 s.

[8] Tahirova H.M., "Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda kənd əhalisinin məskunlaşması və demoqrafik inkişaf xüsusiyyətləri", Coğrafiya və təbii resurslar – №2 (14) – 2021 – 71 səh.

[9] Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti: Dayanıqlı və davamlı inkişafın təntənəsi. Monoqrafiya. Bakı: İqtisad Universiteti –2011

[10] Paşayev N.Ə., Ağakişiyeva G.R. Azərbaycan Respublikasının Coğrafiyası. — Bakı– 2015. —400 c.

[11] Səfərov R. Dayanıqlı inkişafın mahiyyəti və ona dair qlobal təşəbbüslərin qısa təhlili. Bakı, "Statistika xəbərləri". Elmi-praktiki jurnal –№ 3/ – 2016 – 2, cild – 22 s.

[12] Khalid, A. M., Sharma, S., and Dubey, A. K. Data Gap Analysis, Indicator Selection and Index Development: A Case for Developing Economies. Soc. Indic Res. – 2020 – 148. – doi:10.1007/s11205-019-02225-6

[13] Emission J. G. (2017). Trading contract and itsregulation. Journal of Chongqing University(SocialScience Edition) – 2017 – 84.

[14] Allen, C., Metternicht, G., & Wiedmann, T. (2018). Prioritising SDG targets: Assessing baselines, gapsand interlinkages.Sustainability Science – 2018 – 14(2) – 421–438 – doi: 10.1007/s11625-018-0596-81

[15] Breuer, A., Janetschek, H., & Malerba, D. "Translating sustainable development goal (SDG) Interdependenciesinto policy advice: Sustainability" *Sustainability* 2019, *11*(7), 2092; https://doi.org/10.3390/su11072092

müzakirə edir və davamlı inkişafın təşviqində ədalətli, insan mərkəzli siyasət çərçivəsinin əhəmiyyətini vurğulayır. Campagnolo, L., Carraro, C., Eboli, F., Farnia, L.,Parrado, R., & Pierfederici, R. tərəfindən yazılan "The ex-anteevaluation of achieving sustainable developmentgoals" adlı kitab[16], Collste, D., Pedercini, M., & Cornell, S. E. tərəfindən yazılmış "Policycoherence to achieve the SDGs: Using integratedsimulation models to assess effective policies"[17] adlı kitab, Khalid, A. M., Sharma, S., and Dubey, A. K. tərəfindən yazılmış "Data Gap Analysis, Indicator Selection and Index Development: A Case for Developing Economies"[18] adlı elmi araşdırmaların mövzu ətrafında aparılmış tədqiqat işində istifadə edilmişdir.

BMT-nin qlobal proqramlarının davamlı inkişaf proseslərinə təsirinin qiymətləndirilməsi BMT-nin davamlı inkişaf üzrə hesabatları[19], BMT Baş Assambleyasının bəyannamə və qətnamələri, Dünya iqtisadi forumunun və BMT-nin digər strukturları əsasında öyrənilib. Davamlı inkişafla bağlı milli könüllü hesabatlar Azərbaycan Respublikasında davamlı inkişaf məqsədlərinə nail olunmağı istiqamətində irəliləyişlərin qiymətləndirilməsi baxımından nəzərdən keçirilmişdir. Nəzərdən keçirilən mövzu üzrə elmi ədəbiyyatın təhlili göstərdi ki, azərbaycanlı və xarici müəlliflər tərəfindən müxtəlif aspektlər tədqiq edilib, lakin "Azərbaycanın cənub bölgəsinin davamlı inkişaf potensialının qiymətləndirilməsi" mövzusu bu tərtibdə təhlil olunmayıb.

---

[16] Campagnolo, L., Carraro, C., Eboli, F., Farnia, L.,Parrado, R., & Pierfederici, R. "The ex-anteevaluation of achieving sustainable developmentgoals", *Social Indicators Research: An International and Interdisciplinary Journal for Quality-of-Life Measurement*, 2018, vol. 136, issue 1, No 5, 73-116 DOI: 10.1007/s11205-017-1572-x

[17] Collste, D., Pedercini, M., & Cornell, S. E. "Policycoherence to achieve the SDGs: Using integratedsimulation models to assess effective policies" 2017;12(6):921-931. doi: 10.1007/s11625-017-0457-x

[18] Khalid, A. M., Sharma, S., and Dubey, A. K. tərəfindən yazılmış "Data Gap Analysis, Indicator Selection and Index Development: A Case for Developing Economies" Social Indicators Research (2020) 148: 893–960. Social Indicators Research (2020) 148: 893–960. https://doi.org/10.1007/s11205-019-02225-6

[19] The Sustainable Development Goals Report 2024, https://unstats.un.org/sdgs/report/2024/The-Sustainable-Development-Goals-Report-2024.pdf

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini davamlı inkişafla bağlı qəbul olunan beynəlxalq prinsiplər, Azərbaycanda Cənub bölgəsinin davamlılığının təmin olunması ilə bağlı proqram və strateji yol xəritələri təşkil edir. Tədqiqatın predmeti Azərbaycanın Cənub bölgəsinin inkişaf dinamikasının qiymətləndirilməsi, inkişaf göstəricilərinin müəyyənləşdirilməsi, davamlı inkişafın təmin edilməsi ilə bağlı görülən işlərin təhlili, Azərbaycan Cənub bölgəsində davamlı inkişaf konsepsiyasını formalaşdıran amillərin nəzərdən keçirilməsi, region üzrə sosial, iqtisadi statistik araşdırmaları əhatə edir.

**Tədqiqat işinin məqsəd və vəzifələri**. Tədqiqat işinin məqsədi ölkənin iqtisadi, sosial və ekoloji imkanlarını nəzərə almaqla Azərbaycan Respublikasının Lənkaran-Astara iqtisadi rayonunun davamlı inkişafının aspektlərini müəyyən etmək və investisiya cəlbediciliyi kontekstində regionun davamlı inkişafı üçün strateji istiqamətlərin işlənib hazırlanmasıdır. Regional inkişafın sosial-ekoloji və iqtisadi aspektində investisiya cəlbediciliyinin rolunun müəyyən edilməsi ilə bağlı məsələnin xüsusi əhəmiyyəti, eləcə də işin mövzusunun aktuallığı dissertasiya işinin məqsəd və vəzifələrinin seçilməsini müəyyən etmişdir.

Tədqiqat işində məqsədə çatmaq üçün aşağıdakı vəzifələr həll edildi:

- "iqtisadi məkan" kateqoriyasının öyrənilməsinə müxtəlif yanaşmaların təkamülünü nəzərdən keçirmək, təkrar istehsal prosesi zamanı regionun əsas xüsusiyyətlərini sistemləşdirmək;
- regionun davamlı inkişafı konsepsiyasının mahiyyətini və məzmununu onun sosial, iqtisadi və ekoloji aspektləri nöqteyi-nəzərindən açmaq, sosial-ekoloji və iqtisadi tarazlığın təmin edilməsinin mümkünlüyünü əsaslandırmaq;
- cənub regionunun davamlı inkişafı göstəricilərinin siyahısını müəyyən etmək, rayonlar üzrə davamlı inkişaf potensialını dəyərləndirmək;
- ölkənin cənubunun ərazi iqtisadiyyatlarında baş verən sosial-iqtisadi meyillərin xüsusiyyətlərinin onların davamlı inkişaf amillərinin müəyyən edilmiş dəyərlərə və hədəflərə uyğunluğu çərçivəsində ətraflı təhlilini vermək;
- ölkənin Cənub subyektlərinin təsərrüfat fəaliyyətinin həyata keçirilməsi şərtlərinin xüsusiyyətlərini nəzərə almaqla, investisiya

proseslərinin dinamikasını və ərazi təsərrüfat sistemlərinin investisiya fəallığının dərəcəsini öyrənmək;

- müvafiq dövlət qurumları ilə müsahibə təşkil edərək sorğunun cavabları əsasında Cənub regionunun davamlı inkişaf potensialını qiymətləndirmək, mövcud problemlərin həlli yollarını axtarmaq və regionun sosial, iqtisadi və ekoloji sferada inkişaf perspektivlərini müəyyənləşdirmək.

**Tədqiqat metodları.** Tədqiqatın müxtəlif mərhələlərində dissertasiya işində bu məqsəd və vəzifələrə nail olmaq üçün əldə edilən nəticələrin etibarlılığını təmin etmək məqsədilə iqtisadi-statistik, müqayisəli-analitik metodlar, modelləşdirmə, müsahibə, ekspert təhlili nəzəriyyəsi, sistemli yanaşma, sorğu, statistik materialların təhlili metodlarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

- Azərbaycan Respublikası ümumi milli inkişafın strategiyasına uyğun olaraq tarixi baxımdan qısa müddətdə Lənkəran-Astara iqtisadi rayonunun davamlı inkişafının sosial-iqtisadi və humanitar inkişaf, təhlükəsizliyin təmin edilməsi sahəsində yüksək nəticələr əldə etməyə imkan verən siyasət həyata keçirir. Bu proses Lənkəran-Astara iqtisadi rayonunun davamlı inkişafına, müxtəlif sahələr üzrə investisiya qoyuluşu əsasında regionun davamlı inkişafı üçün strateji istiqamətlərin işlənib hazırlanması mexanizmlərinə əsaslanır.

- Davamlı inkişaf təşəbbüslərinin region üçün təsiri, istifadə olunan göstərici və ya ölçü sisteminin mövcudluğu, davamlı inkişafı təşviq etmək üçün hazırda həyata keçirilən konkret siyasətlər və strateji planlar, dayanıqlı inkişaf məqsədlərinə nail olmaqda rayonun üzləşdiyi əsas maneələr, problemlərin dövlət təşkilatları və akademik qurumlar tərəfindən necə həll olunması, habelə davamlı inkişafın təmin edilməsi üçün gələcək hədəflər haqqında cənub rayonları üzrə ayrılıqda daha geniş məlumat əldə etmək üçün dövlət qurumlarına suallar verilmiş və hal-hazırda bu məsələlərlə bağlı vəziyyət dəqiq şəkildə öyrənilmişdir.

- Lənkəran-Astara iqtisadi rayonunda həyata keçirilən sosial-iqtisadi tədbirlər davamlı inkişafı dəstəkləyən dəyərlərə və hədəflərə, Azərbaycan Respublikası ümumi milli inkişaf strategiyasına uyğun işlənib hazırlanmışdır.

- Azərbaycan Respublikasının Cənub bölgəsinin davamlı inkişaf amillərinin formalaşdırılması istiqamətində dövlət siyasətinin yüksək dərəcə səmərəli olması sosial və iqtisadi sferada əldə olunan müsbət statistik nəticələrlə təsdiqlənmişdir.

- Azərbaycan Respublikasının Cənub bölgəsinin davamlı inkişafının optimal prioritetləri əsaslandırılmış, sosial-iqtisadi inkişafının səmərəliliyini artırmaq məqsədilə davamlı vəziyyətə keçid prosesinin təhlilinə nail olunmuşdur.

- Lənkəran-Astara iqtisadi rayonunda sosial, iqtisadi sahələrin inkişaf dinamikasını izləmək və ekoloji vəziyyəti qiymətləndirmək məqsədilə müvafiq dövlət qurumları ilə sorğu müsahibə təşkil edilmişdir. Müsahibədə ünvanlanmış sualların cavabları əsasında Lənkəran-Astara iqtisadi rayonunda müxtəlif sahələrdə inkişafın mövcud vəziyyəti, inkişaf sürəti, inkişafı ləngidən amillər və regionun davamlı inkişaf potensialı ilə bağlı mühüm nəticələr əldə olunmuş, müvafiq təklif və tövsiyələr irəli sürülmüşdür.

- Son olaraq aparılan təhlillər əsasında belə qənaətə gəlmək olar ki, cənub regionu hesab olunan Lənkəran-Astara iqtisadi rayonunda davamlı inkişafı təmin etmək ölkənin ümumi inkişafına təsir edəcək, qonşu rayonların bu irəliləyişdən təsirlənməsinə gətirib çıxaracaqdır.

**Tədqiqatın elmi yeniliyi**. Mövcud empirik, nəzəri, metodoloji və informasiya materiallarının sistemləşdirilməsi, təhlili və emalı əsasında tədqiqatın elmi yeniliyinə aid nəticələr və təkliflər tərtib edilmişdir:

-iqtisadi ədəbiyyatda nəzərdən keçirilən kateqoriyalar çərçivəsində ərazi iqtisadi sistemlərinin inkişafının davamlılığı prosesini qiymətləndirən göstəricilərin siyahısı müəyyən edilmişdir;

- davamlı inkişaf məqsədləri və onların Azərbaycan və region üçün aktuallığı inklüziv cəmiyyətin formalaşması, Cənub regionunun infrastruktur sahələrində investisiya qoyuluşu əsasında inkişaf potensiallığının qiymətləndirilməsi baxımından təqdim edilmişdir;

- regionun davamlı inkişafı potensialının dəyərləndirilməsi, Cənub regionunda davamlı inkişafın indikator və monitorinq sistemi, Cənub regionun davamlı inkişafın rayonlar üzrə təhlili və qiymətləndirilməsi aparılmışdır.

**Tədqiqat işinin nəzəri və praktiki əhəmiyyəti.** Bu tədqiqatın nəzəri əhəmiyyəti ondan ibarətdir ki, regionun iqtisadi və coğrafi

baxımdan ən perspektivli sektorlarını öyrənmək, davamlı inkişaf konsepsiyasının üstünlüklərini müəyyən etmək, davamlı inkişaf potensialının yaradılması və regionda aparıcı sənaye sahələrinin davamlı inkişaf dinamikasının təhlilini aparılmasında, hesabatların hazırlanmasında istifadə edilə bilər. Regionda davamlı inkişaf üçün prioritetlərin müəyyən edilməsi, onların hazırlanması, həyata keçirilməsi prosesinə bütün milli və beynəlxalq tərəfdaşların cəlb edilməsi yüksək rəqabət qabiliyyətli davamlı inkişaf konsepsiyasının formalaşdırılması üçün ən mühüm şərtdir.

Dissertasiya tədqiqatının praktiki əhəmiyyəti Cənub bölgəsinin davamlı inkişaf prosesinin tədqiqində nəzəri və metodoloji müddəaların işlənib hazırlanmasında istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi**. Dissertasiya işinin əsas nəzəri müddəaları və praktiki təklifləri müəllifin çap etdirdiyi 6 elmi məqalədə, elmi-praktiki konfranslarda və müəllifin məruzələrində öz əksini tapmışdır. Müəllifin çap etdirdiyi məqalələr: UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komitəsi - İnsan və Biosfer (MaB – YUNESKO). Azərbaycan Milli Komitəsinin əsərləri. Məqalənin adı "Davamlı inkişafın regional xüsusiyyətləri"; "Kaspi" Geosiyasi Araşdırmalar Mərkəzi - Geostrategiya. Məqalənin adı "Davamlı inkişaf cəmiyyət və təbiətin qarşılıqlı əlaqəsi kimi"; Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası - Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Məqalənin adı "Azərbaycanın cənub regionunda davamlı inkişaf siyasəti"; Xarici jurnal - Вопросы Истории. Məqalənin adı "Перспективы реализации целей устойчивого развития в Южном регионе Азербайджана"; Odlar Yurdu Universiteti - Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji Xəbərləri. Məqalənin adı "Effektiv İdarəetməyə nail olmaq üçün Davamlı İnkişaf Göstəricilərindən istifadə"; AMEA Fəlsəfə İnstitutu - Elmi əsərlər. Məqalənin adı "Azərbaycanda davamlı enerji təminatının mühüm xüsusiyyətləri". Azərbaycan Respublikasının regional səviyyədə ətraf mühitin mühafizəsi**,** Akademik Tarih ve Düşünce Dergisi.

Müəllifin çap etdirdiyi konfrans materialları: Dövlət İdarəçilik Akademiyasında "Dövlət idarəçiliyində islahatların yeni mərhələsi" mövzusunda onlayn elmi-praktiki konfrans "Azərbaycan Respublikasında davamlı inkişafın təmin edilməsinin siyasi

aspektləri"; Azərbaycan Respubilkası Elm və Təhsil Nazirliyi Mingəçevir Dövlət Universiteti - Yeni Dövrdə Təhsil və Tədqiqat Fəaliyyəti: Reallıqlar və Çağırışlar. "Regional təhsilin rəqəmsallaşdırılmasının əsas istiqamətləri"; Elmi iş Beynəlxalq elmi jurnal - XVI Beynəlxalq Elmi Araşdırmalar konfransı. "Ümummilli lider Heydər Əliyevin davamlı inkişaf konsepsiyasının tərəqqisində rolu"; Xarici konfrans - Kahramanmaraş İstiklal University Faculty of Humanities and Social Sciences - 3rd International symposium of economics, business & social sciences'23 "Political Agenda Formation System of Sustainable Development Indicators"; CEO (İletişim, Ekonomi, Organizasyon) Sosyal Bilimler Kongresi - "Exploring the key features of sustainable development in the southern region of Azerbaijan".

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dayanıqlı inkişafın planlaşdırılması və idarə edilməsi" kafedrasında tamamlanmışdır.

**Dissertasiyanın strukturu.** Tədqiqat işinin strukturu mövzunun xarakterinə uyğun olaraq müəyyənləşdirilmişdir. Dissertasiya işi mündəricat, giriş, 3 fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından təşkil edilmişdir. I və II fəsil 4 yarımfəsildən, III fəsil isə 3 yarımfəsildən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** bölməsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, tədqiqatın məqsəd və vəzifələri, tədqiqatın metodları müəyyənləşdirilmiş, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti şərh edilmiş, tədqiqat işinin aprobasiyası və dissertasiyanın strukturu qeyd edilmişdir.

Dissertasiyanın ilk fəsli **"Davamlı inkişaf müasir dövrün prioriteti kimi"** adlanır və dörd yarımfəsildən ibarətdir. Bu fəsildə davamlı inkişafa təsir edən mənfi tendensiyalar kontekstində əsas səbəblər qeyd edilmiş, potensial risklər və davamlı inkişafı təmin edən amillər araşdırılmış, davamlı inkişaf konsepsiyasının keçdiyi yol, davamlı inkişafı dəstəkləyən davamlı inkişaf məqsədlərinin Azərbaycan üçün aktuallığı nəzərdən keçirilmiş, inklüziv, ədalətli və

bərabər cəmiyyətin mövcudluğu davamlı inkişafın təmin edilməsində əsas amil kimi müəyyənləşdirilmişdir.

Birinci fəslin **“Davamlı inkişaf cəmiyyətin inkişafında mənfi tendensiyalara cavab kimi”** adlı yarımfəslində davamlı inkişafa təsir edən mənfi tendensiyalar dairəsində əsas səbəblər nəzərdən keçirilmişdir. Qeyd olunur ki, əsas üç səbəbdən birincisi bərpa olunmayan enerji ehtiyatlarının tükənməsi ilə bağlıdır. Bu ehtiyatlar nə qədər çox istifadə edilirsə, onlar mütənasib şəkildə də azalır və tükənir. İkinci səbəb əhalinin say artımı və urbanizasiya ilə bağlıdır. Say artımı səbəbindən torpaq əraziləri tikililərin, yolların, eləcə də digər infrastruktur obyektlərinin altında qalır. Urbanizasiyaya gəldikdə, tarixən urbanizasiya əhəmiyyətli iqtisadi və sosial transformasiyalarla əlaqələndirilmişdir. Bununla belə, urbanizasiyanın sürətli və planlaşdırılmamış şəkildə böyüməsi nəticəsində yaranan mənfi cəhətləri də var ki, bu da qeyri-adekvat mənzil, su və kanalizasiya, nəqliyyat və səhiyyə xidmətlərinin zəif infrastrukturu ilə nəticələnir.[20] Üçüncü səbəb ətraf mühitin çirklənməsi və ekoloji tarazlığın pozulmasıdır. Ekoloji tarazlığın pozulması təbiət və onun nemətlərindən israfçılıqla istifadə, torpaq qatının sıradan çıxması, insanın vəhşi təbiətə nüfuz edərək onun ekoloji tarazlığını pozması və başqa səbəblərlə əlaqədardır.

Birinci fəslin **“Davamlı inkişaf konsepsiyasının yaranması və inkişafı”** adlanan yarımfəslində qeyd edilir ki, davamlı inkişaf anlayışı yarandığı gündən bu günə qədər müxtəlif şərh və tənqidlərlə üzləşmişdir. Brundtland hesabatı davamlı inkişaf anlayışının necə fərqli mənalara malik olduğunu ifadə etdi və strategiyaların vahid planlaşdırılmasına, ekologiyaya, irsin qorunmasına, biomüxtəlifliyə və uzunmüddətli davamlı inkişafa istinad etmişdir. [21]

Davamlı inkişaf daha çox insanın ehtiyaclarını təmin edən sosial-iqtisadi sistem, eyni zamanda ətraf mühitin məhdudiyyətlərinə uyğun olaraq rifah və ümumi həyat keyfiyyətinin yaxşılaşdırılması istiqamətində uzunmüddətli irəliləyiş kimi qəbul edilir. Konsepsiyanın

---

[20] Qəribova E., Rüstəmova V., “Azərbaycan daxili miqrasiya və urbanizasiyanın sosial aspektləri”, Analitik hesabat // Azərbaycan Barometri №2, Sosial Tədqiqatlar Mərkəzi – 2020 – 72 səh.

[21] Ələkbərov U. Davamlı insan inkişafı və ekoloji sivlizasiyanın əsasları. Ali məktəblər üçün dərslik. Bakı, “Təhsil” – 2013 – 224 səh.

əsas mahiyyəti dəyişməzdir. Belə ki, davamlı inkişaf prosesi gələcək nəsillərin ehtiyaclarına heç bir mənfi təsir göstərmədən və zərər vermədən indiki nəslin ehtiyaclarını qarşılamağa imkan verir. Yarımfəsildə qeyd olunur ki, pandemiya və müharibədən sonrakı dövrdə Azərbaycan davamlı inkişaf prosesində yeni mərhələyə qədəm qoyur ki, bu strateji dövr 2021-2030-cu illəri əhatə edir. Ölkənin uzunmüddətli sosial-iqtisadi və ekoloji inkişaf vektoru Azərbaycan hökuməti tərəfindən qlobal tendensiyalar və qlobal çağırışlar əsas tutularaq müəyyənləşir.

Birinci fəslin **"Davamlı inkişaf məqsədləri və onların Azərbaycan və region üçün aktuallığı"** adlanan yarımfəslində qeyd olunur ki, 2015-ci ilin sentyabr ayında BMT-nin 70-ci Yubiley Assambleyasında davamlı inkişaf sahəsində dünyada yaranmış vəziyyət müzakirə edilmişdir. Davamlı inkişafın qlobal prioritet kimi qəbul olunmasıyla 2030-cu ilədək həyata keçirilməsi planlaşdırılan 17 məqsəd müxtəlif iqtisadi, sosial, ekoloji və humanitar aspektləri əhatə edir. Dünya ölkələrinin inkişaf səviyyələri fərqli olduğundan davamlı inkişaf sahəsində onların qarşısında duran məqsədlər də fərqli ola bilir. İnklüziv inkişafın əsasını təşkil edən davamlı inkişaf sahəsində nəzərdə tutulmuş məqsədlər məna və əhəmiyyətinə görə qruplaşdırıla bilər.[22]

Azərbaycan dövləti ölkənin sosial-iqtisadi təkmilləşmə və ətraf mühitin mühafizəsi istiqamətində özündə uzunmüddətli tərəqqi yollarını ehtiva edən beş milli prioriteti bu ardıcıllıqla müəyyənləşdirmişdir: 1) dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat; 2) dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət; 3) rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı; 4) işğaldan azad olunmuş ərazilərə böyük qayıdış; 5) təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi. Məhz bu məqsədlə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiq edilmişdir.[23]

Birinci fəslin **"İnklüziv cəmiyyətin formalaşması ölkə və regionun prioriteti kimi"** adlanan sonuncu yarımfəslində vurğulanır ki, sabit, təhlükəsiz, ədalətli və tolerant olan, müxtəlifliyə, imkan

---

[22] Azərbaycan – 2030. Minilliyin inkişaf məqsədlərindən dayanaqlı inkişaf məqsədlərinə doğru. Könüllü milli hesabat – 2017 – 80 s.

[23] Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. https://president.az/az/articles/view/50474.

bərabərliyinə və bütün insanların, o cümlədən əlverişsiz və həssas qrupların və şəxslərin iştirakına hörmət edən inklüziv cəmiyyətləri inkişaf etdirməklə sosial inteqrasiyanı təşviq etmək mümkündür. Yarımfəsildə sosial inklüzivliyin təşviqini mümkün edən iyerarxik formaya əsaslanan vacib kateqoriyalar izah olunur. Ölkəmizdə sosial inklüzivliyin təminatı naminə görülən işlərdən danışılır və əsas faktorlar göstərilir. Bunun nəticəsidir ki, ölkə dövrümüzün əsas qlobal prioriteti olan inklüziv inkişaf sahəsində lider dövlətə çevrilib. İnklüziv inkişaf o zaman idarəetmə üsuludur ki, ölkə hərtərəfli inkişaf edir və bu prosesin müsbət nəticələri bütün vətəndaşlar tərəfindən hiss olunur. Azərbaycanda gedən inklüziv inkişaf prosesi Prezident İlham Əliyevin dərin düşünülmüş dövlət idarəçiliyi strategiyasının həyata keçirilməsinin nəticəsidir.

Dissertasiyanın ikinci fəsli **"Davamlı inkişafın idarə edilməsi"** adlanır və dörd yarımfəsildən ibarətdir. Bu fəsildə davamlı inkişaf göstəriciləri nəzərdən keçirilir, cənub regionunda davamlı inkişaf prosesinin mövcud durumu və perspektivləri müzakirə olunur.

İkinci fəslin **"Davamlı inkişafın indikatorları"** adlanan yarımfəslində davamlı inkişaf iqtisadi, sosial, ekoloji sferalarda baş verən uzunmüddətli transformasiya prosesi kimi əks olunur. BMT Baş Assambleyası və Dünya Sammitinin 2030-cu ilədək Davamlı İnkişaf Məqsədlərinə nail olmaq üçün hədəfləri say etibarilə getdikcə artır. Bütün bu hədəflər təsdiq edilmiş 17 məqsədin tərkib hissəsidir. Davamlı cəmiyyətlər yaratmaq niyyətində olan  müxtəlif ölkələrdə fərqli məsələlər və problemlərin həlli əhəmiyyətli ola bilər. Bununla yanaşı, davamlı inkişafın təminatı üçün universal göstəricilərin mövcudluğu vacibdir.

İkinci fəslin **"Regionun davamlı inkişaf potensialının dəyərləndirilməsi"** adlı yarımfəslində təbii resurslar, əmək ehtiyatları, müxtəlif xidmət sahələrinə malik iqtisadi-coğrafi məkan olan regionların  sosial, iqtisadi, ekoloji idarəetmə strukturunun əsas hissəsi kimi çıxış etdiyi bildirilir. Regional inkişaf sosial-iqtisadi inkişaf strategiyasının özülünü təşkil edir və dövlət siyasətinin prioritet istiqamətlərindən biridir.

Dövlət Proqramları çərçivəsində Lənkəran-Astara rayonunda infrastruktur quruculuğu uğurla davam etdirilmişdir. Kommunal xidmətlərin keyfiyyəti yüksəlmiş, yeni elektrik stansiyaları fəaliyyətə

başlamış, rayon və kəndlərdə qazlaşdırma prosesi sürətləndirilmiş, əhalinin içməli su təminatı probleminin həlli yolunda işlər görülmüş, yeni yollar çəkilmiş və ya yenidən qurulmuşdur. Cənub regionunda aqrar sahədə intensiv bağçılıq təsərrüfatının yaradılması, müasir çay plantasiyalarının artırılması, aqroparkın fəaliyyətinin genişləndirilməsi məqsədləri icra olunur.

İkinci fəslin **"Cənub regionunda davamlı inkişafın indikator və monitorinq sistemi"** yarımfəslində qeyd edilir ki, Lənkəran-Astara iqtisadi rayonu iqlim və torpaq xüsusiyyətlərinə görə Azərbaycanın ən yüksək kənd təsərrüfatı potensialına malik bölgələrindən biridir. Qeyri-neft sektorunun inkişafına təkan verilməsi məqsədilə sənayenin inkişafına stimul verən proseslər intensivləşdirilmişdir. Bu istiqamətdə Astara rayonunda kənd təsərrüfatının inkişafı üçün bağçılıq sahəsində davamlı işlər, sitrus bağlarının salınması, çəltikçilikdə istehsalın artırılması, Cəlilabad rayonunda heyvandarlığın inkişafı üçün aqroparkın genişləndirilməsi, kartofçuluq və taxılçılıq kimi təsərrüfat sahələrində istehsalın yaxşılaşdırılması, Lerik və Yardımlı rayonlarında kartofçuluq və arıçılığın, Lənkəran və Masallı rayonlarında çay plantasiyalarının artırılması, sitrus bağçılığının inkişafı və bu inkişafa şərait yaradan maddi-texniki bazanın yaxşılaşdırılması nəzərdə tutulmuşdur.

Lənkəran-Astara iqtisadi rayonunda davamlı inkişafın indikator sistemini inkişaf etdirmək üçün nəzərdən keçirilən amilləri özündə birləşdirən vahid sistemin yaradılması vacibdir. Hansı ki, bu sistem özündə əvvəlki illərlə müqayisə apararaq rayonun inkişaf tendensiyasını diqqət mərkəzində saxlamalı, inkişafa mane olacaq amilləri araşdırmalı, statistik məlumatları təhlil etməklə mövcud vəziyyəti dəyərləndirməli, gələcək perspektivləri müəyyən etməlidir.

İkinci fəslin **"Cənub regionun davamlı inkişafın rayonlar üzrə təhlili və qiymətləndirilməsi"** adlanan yarımfəslində davamlı inkişafın əsas faktorlarından biri kimi çıxış edən demoqrafik göstəricilərin təhlili göstərir ki, ən çox əhali Lənkəran rayonunun (231639 nəfər), ən az isə Yardımlı rayonunun (69446 nəfər) payına düşür. İqtisadi rayonda əhalinin sayı 2022-ci ilin son statistikasına

görə 930,6 min nəfərdir və kənd əhalisi şəhər əhalisi ilə müqayisədə üstünlük təşkil edir.[24]

Lənkəran-Astara iqtisadi rayonunda sosial müdafiə sisteminin gücləndirilməsi üçün aztəminatlı ailələrə dəstək tədbirləri, sosial müavinətlərin verilməsi, kommunal xidmətlərinin göstəricilərinin yaxşılaşdırılması ilə bağlı tədbirlər, mənzil təminatı, mənzil tikintisinin xüsusi kapital hesabına genişləndirilməsi tədbirləri əhalinin həyat şəraitini xeyli yüksəltmişdir. Yarımfəsildə sosial, iqtisadi məsələlərlə bərabər cənub regionunda ekoloji problemlərə yol açan amillərə diqqət yetirilmişdir. Cənub regionunda rayonlar üzrə sosial, iqtisadi və ətraf mühitlə bağlı statistik məlumatlar qeyd edilmiş, müqayisələr aparılmışdır.

Üçüncü fəsil **"Cənub regionunun davamlı inkişafının əsas istiqamətləri"** adlanır və üç yarımfəsildən ibarətdir. Bu fəsildə cənub rayonları üzrə davamlı inkişafın iqtisadi, sosial və ətraf mühitlə bağlı aspektləri əks olunmuşdur. Fəsildə cənub regionunun sosial, iqtisadi və ekoloji istiqamətdə davamlı inkişafını daha yaxşı təhlil etmək üçün təşkil edilmiş sorğular əks olunmuşdur.

Üçüncü fəslin **"Cənub regionunun davamlı inkişafının iqtisadi aspektləri"** adlanan yarımfəslində göstərilir ki, iqtisadi dayanıqlığı və davamlı inkişafı şərtləndirən ən əsas amillərdən biri idxaldan asılılığın aradan qaldırılması, daxili tələbatın ödənilməsi və ixracın həcminin genişləndirilməsidir. Cənub regionunda da yerli istehsalın yüksək səviyyəyə qaldırılması, müxtəlif təsərrüfat sahələrinin inkişafı üçün dəstək verilməsi iqtisadi inkişaf potensialını artırır. Lənkəran-Astara iqtisadi rayonu üzrə iqtisadi inkişaf aspektində kənd təsərrüfatı əsas yer tutur. Qeyd edilir ki, çay plantasiyalarının artırılması, taxılçılıq, sitrusçuluq və bağçılığın inkişaf etdirilməsi, maldarlığa diqqət yetirilməsi regionun iqtisadi inkişafını təmin edir.

Üçüncü fəslin **"Cənub regionunda davamlı inkişafın sosial potensialı"** adlanan yarımfəslində son illər ərzində region üzrə demoqrafik göstəricilərin statistik təhlili verilmişdir. Eyni zamanda pensiyaçılar, sosial müavinət alan şəxslərlə bağlı son illərin statistikası əks olunmuşdur.

---

[24]Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları https://www.stat.gov.az/source/regions/

Davamlı inkişafın sosial aspektləri çərçivəsində regionda təhsil və bacarıqların inkişafı istiqamətində görülmüş işlər haqqında məlumat verilmişdir. Belə ki, cənub rayonlarında yeni təhsil müəssisələrinin tikilməsi, habelə təmir-bərpa işlərinin görülməsi, təhsil ocaqlarında maddi-texniki bazanın təkmilləşdirilməsi və müasir avadanlıqlarla təmin olunma kimi məsələlərə toxunulmuşdur.

Lənkəran-Astara iqtisadi rayonunda içməli su təminatı problemi uzun müddət mövcud olmuşdur. Lakin son illər ərzində meliorasiya sahəsində görülən işlər müxtəlif rayonlarda bu problemi aradan qaldırmışdır. Əhalinin keyfiyyətli və dayanıqlı içməli su ilə təmin olunması mümkünləşmişdir.

Cənub regionunda sosial inkişaf istiqamətində ümumi vəziyyəti daha yaxşı müəyyən etmək üçün əhalinin tələbatı, daxili miqrasiya kimi məsələlər ətrafında dövlət qurumlarına ünvanlanan müsahibə suallarının cavabları əsasında və regionun sosial inkişaf imkanlarının öyrənilməsi məqsədilə turizm müəssisələrinə ünvanlanan sorğu əsasında əldə olunan nəticələr yarımfəsildə qeyd edilmişdir.

Üçüncü fəslin "**Cənub regionu üzrə ekoloji problem və ətraf mühitin qorunması"** adlanan yarımfəslində meşə ehtiyatının kəskin azalması qlobal ekoloji problem kimi vurğulanır. Lənkəran-Astara bölgəsində kənd təsərrüfatının inkişafı üçün əkin, bağ sahələrinin artırılması meşə ərazilərinin azalmasına, məhsul üçün istifadə olunan kimyəvi maddələr kimyəvi çirklənməyə səbəb olmuşdur. Eyni zamanda turizmin inkişaf etdirildiyi ərazilərdə axar suların və ətraf ərazilərdə torpağın müxtəlif tullantılar səbəbindən çirklənməsi müşahidə olunur. Meşələrin qırıldığı ərazilərdə torpağın daha çox eroziyaya məruz qalması, şirin suların çirkləndirilməsi, dəniz və çaylara çirkab sularının axıdılması, boş sahələrdə, o cümlədən qırılmış meşəlik ərazilərdə ağacların əkilməməsi ekoloji vəziyyəti daha da çətinləşdirir. Yarımfəsildə şirin su ehtiyatlarının qorunması, su çirklənməsinin və ətraf mühitin tullantılarla çirklənməsinin qarşısının alınması üçün müəyyən təkliflər göstərilmişdir.

Tədqiqatın yekununda əldə olunan nəticələr, təklif və tövsiyələr dissertasiyanın **Nəticə** hissəsində aşağıdakı kimi əks olunmuşdur:

Ölkəmizdə regionların, o cümlədən cənub regionunun inkişafı son illərdə diqqət çəkən məqamlardandır. Lənkəran iqtisadi rayonunda təbii artım, davamlı iqtisadi və sosial-mədəni inkişaf özünü

göstərməkdədir. Qeyd edək ki, bir regionun davamlı inkişafı ona daxil olan inzibati ərazilərin tərəqqisindən birbaşa asılıdır. Bu nöqtəyi-nəzərdən Lənkəran-Astara iqtisadi rayonunun inkişafı tərkibini təşkil edən Lənkəran, Lerik, Masallı, Yardımlı, Cəlilabad və Astara inzibati rayonlarının yüksəlişini səciyyələndirir.

Kənd təsərrüfatında taxılçılıq, üzümçülük, tərəvəzçilik, çayçılıq və sitrusçuluq sahələrinin artırılması, heyvandarlığın inkişaf etdirilməsi məşğulluq imkanlarını artırır və regionda davamlı iqtisadi inkişafa zəmin yaradır. Sahibkarlara dövlət dəstəyinin göstərilməsi, güzəştli kreditlərin verilməsi, aqrar sahədə müasir texnologiyaların tətbiqinə şərait yaradılması bu sahə üçün xüsusi əhəmiyyətlidir. Aqrar sahənin inkişaf prosesində ətraf mühitin, torpağın zərər çəkməsi, urbanizasiya səbəbi ilə işçi sayının azalması, habelə daxili və xarici bazarlarda təşviqin aşağı olması həll edilməli problemlərdəndir.

Regionun əsas gəlir mənbəyi olaraq davamlı iqtisadi inkişafını dəstəkləyən turizm sektoruna diqqətin artırılması, dövlət-özəl əməkdaşlığının genişləndirilməsi, turizm üçün əlverişli ərazilərdə mehmanxanaların tikilməsi, kadr cəlb edilməsi üçün işlərin görülməsi, mədəni irsin təbliği, ekoturizm çərçivəsində turların davamlı təşkili, investorların cəlb olunması cənub regionunda son illərdə turizm sahəsində irəliləyişə səbəb olmuşdur.

Cənub regionunda xidmət sahələrinin fəaliyyətində yüksəliş müşahidə olunur. Səhiyyə sistemində olan dəyişikliklər, yeni texnoloji avadanlıqlarla təminat və bu kimi digər məsələlər tibbi xidmət sferasının regionda yüksəlişini əks etdirir. Regionda təhsilin inkişafı məqsədilə cənab Prezident İlham Əliyev və birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü əsasında regionda yeni məktəbəqədər təhsil müəssisələri, o cümlədən orta təhsil müəssisələrinin tikintisi həyata keçirilib, köhnə məktəb binaları təmir olunub. Regionda sadəcə bir universitetin fəaliyyət göstərməsi isə tələbələr üçün çətinlik yaradır. Bu baxımdan regionda ali təhsil müəssisələrin sayının artırılması mütləq hesab olunur. Qeyd edək ki, yerli tələbələrin əlavə xərc çəkmədən elə öz rayonlarında təhsil alması həm region üçün kadr potensialının formalaşmasına müsbət töhfə verəcək, həm də paytaxtda əhali artımını müəyyən qədər azaldacaqdır. Bununla yanaşı, Azərbaycana təhsil almaq üçün gələn xarici tələbələrin regionlardakı

ali təhsil müəssisəsini seçməsi bu bölgələrin inkişafı üçün mühüm töhfə verəcəkdir.

Ekoloji problemlərin aradan qaldırılması üçün cənub regionunda, xüsusilə turizm obyektlərinin və kənd təsərrüfatı sahələrinin yerləşdiyi ərazilərdə suyun və ətraf mühitin çirklənməsinin qarşısının alınması, təkrar emalın aparılması, təbii ehtiyatlardan qənaətli istifadə, ağac əkmə aksiyalarının və maarifləndirmə tədbirlərinin davamlı həyata keçirilməsi əhəmiyyətlidir.

Ümumilikdə, Lənkəran-Astara iqtisadi rayonunda davamlı inkişafa təkan verəcək tədbirlərin görülməsi davam etdirilir. Belə ki, bu tədbirlər dövlət, qeyri-hökümət təşkilatları, hətta beynəlxalq təşkilatlar tərəfindən həyata keçirilir. Buna nümunə olaraq "Avropa İttifaqının Azərbaycanın Lənkəran rayonuna dəstəyi Proqramı"nı göəstərmək olar. Dövlətimiz tərəfdən isə regionların sosial-iqtisadi inkişaf proqramlarının tərkib hissəsi olaraq iqtisadi rayon inkişaf etdirilir.

Cənub regionunun davamlı inkişafının təmin olunması üçün aşağıdakı təklif və tövsiyələr irəli sürülə bilər:

- **Davamlı inkişafın dünya təcrübəsi araşdırılaraq regionun inkişafında istifadə olunması.** Sosial infrastrukturda, iqtisadi sahələrdə, ekoloji təhlükəsizliyin təmin olunmasında yeni texnologiyaların səmərəliliyini araşdırmaq və regionlarda tətbiq etmək vacibdir. İqtisadi cəhətdən xidmət sahələrində, kənd təsərrüfatında innovativ texnologiyalardan istifadə ümumi inkişaf üçün böyük səmərə gətirə bilər.
- **Regionun inkişafında həlledici rol oynayan sektorlara investisiyalar cəlb edilməsi.** Lənkəran-Astara iqtisadi rayonunda turizm sektoru əhəmiyyətli rol oynayır, ona görə də bu sektorun inkişafına xarici və daxili investisiyalar cəlb olunmalı, turizm müəssisələri inkişaf etdirilməlidir. Xüsusilə də xarici şirkətlərin yerli turizm sektorunun inkişafına cəlb edilməsi beynəlxalq münasibətlərin genişlənməsinə də təsir göstərə bilər.
- **Regionun yüksək turizm potensialını nəzərə alaraq əsas gəlir mənbəyi olan turizm sektorunda keyfiyyətin artırılmasına diqqətin artırılması.** Bu istiqamətdə sektora turizm sahəsi üzrə biliklərə və xarici dil bacarıqlarına malik ixtisaslaşmış kadrların cəlb olunması, mehmanxanaların müasir standartlar əsasında təşkili,

turistik bölgələrdə nəqliyyat infrastrukturunun yaxşılaşdırılması, yerli və xarici turistlər üçün turların təşkilinin genişləndirilməsi bu sahədə dayanıqlı inkişafı təmin edəcəkdir.

- **Cənub regionunda kənd təsərrüfatının inkişafı üçün yeni logistik mərkəzlər açılması, soyuducu anbarlar, tədarük məntəqələrinin yaradılması.** Logistik mərkəzlərin və kənd təsərrüfatı məhsullarının il boyu saxlanılmasına imkan verən anbarların olmaması çətinlik yaradır. Bu çatışmazlıqların aradan qaldırılması məqsədəuygun hesab edilir.

- **Kənd təsərrüfatı məhsullarının satışı üçün daxili bazarlar qorunması, ixrac bazarlarının sayı artırılması.** Fikrimizcə, bazarlara çıxışın təmin edilməsi üçün səlahiyyətli qurumun yaradılması və bu istiqamətdə problemlərin həll edilməsi kənd təsərrüfatı məhsullarının daxili və xarici bazarlarda satış təşviqini artıracaqdır.

- **Kənd təsərrüfatında məhsuldarlığın yüksəldilməsi üçün suvarma sistemləri artırılmalı, yeni suvarma xəttləri yaradılması.** Əkin sahələrinin, bağların su təminatının zəif olması məhsuldarlığın aşağı salır. Problemin həlli üçün qeyd edə bilərik ki, suvarma suyuna olan tələbatın ödənilməsi məqsədilə su anbarlarına yığılan yağış suyu kənd təsərrüfatında istifadə edilə bilər.

- **Təhsil sektorunun inkişafı üçün yeni ali təhsil müəssisələri təşkil olunması.** Bu həm yerli tələbələr, həm də xarici ölkələrdən gələn tələbələr üçün əlverişli olmaqla bərabər, regionun kadr potensialının artmasına, iş yerlərinin artmasına gətirib çıxara bilər.

- **Səhiyyə sisteminin inkişafı üçün xüsusilə kəndlərdə yeni tibb məntəqələri, klinikalar yaradılmalı, tibb sahəsində tətbiq olunan texnoloji avadanlıqlar xarici ölkələrdən gətirilməsi.** Kənd yerlərində tibbi xidmətin zəifliyini nəzərə alsaq, insanların səhiyyə xidmətindən istifadəsini asanlaşdırmaq üçün yeni müasir xəstəxanaların təşkilinin vacib olduğunu vurğulamaq lazımdır.

- **Sanitariya məqsədilə regionun bir çox ərazilərində vahid kanalizasiya sistemi yaradılması.** Problemin həlli istiqamətində cənub rayonlarında xeyli iş görülsə də hələ ki bu problem tam həllini tapmamışdır. Regionun bir çox ərazilərində mərkəzləşdirilmiş kanalizasiya şəbəkəsi və tullantı su təmizləyici qurğularının əquraşdırılmasına ehtiyac vardır.

- **Regionda sahibkarlıq subyektlərinə göstərilən xidmət və güzəştlərlə bağlı sistemin yaradılması sahibkarlıq fəaliyyətinin davamlı inkişafını təmin edəcəkdir.** Güzəştli kreditlərin həcminin artırılması, sahibkarların maraqlarının təmin olunması gənclər üçün məşğulluq imkanlarını artırar, şəhərlərə miqrasiyanın qarşısını alar.

Son olaraq qeyd edək ki, Lənkəran-Astara iqtisadi rayonunun davamlı inkişafı Azərbaycan Respublikasının ümumi inkişafında mühüm rol oynayır.

**Tədqiqatın əsas məzmunu müəllifin çap edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**


1. Tahirli F.İ. Ümummilli lider Heydər Əliyevin davamlı inkişaf konsepsiyasının tərəqqisində rolu, Elmi iş Beynəlxalq elmi jurnal - XVI Beynəlxalq elmi araşdırmalar konfransı, 8 noyabr 2023, XVI cild, ISSN 2663-4619 https://aem.az/ uploads/files/2023-12/1703826187_xv-bek.pdf
2. Tahirli F.İ. Azərbaycan Respublikasında davamlı inkişafın təmin edilməsinin siyasi aspektləri. Konfrans materialı. Dövlət İdarəçilik Akademiyasında "Dövlət idarəçiliyində islahatların yeni mərhələsi" mövzusunda onlayn elmi-praktiki konfrans 2020 Protokol №1 https://dia.edu.az/ru/arxivlər/4654
3. Tahirli F.İ. Azərbaycan Respublikasının regional səviyyədə ətraf mühitin mühafizəsi, Akademik Tarih ve Düşünce Dergisi, 11 (3), 2024, ISSN: 2148-2292 https://dergipark.org. tr/tr/pub/atdd/issue/85042/1509292
4. Tahirli F.İ. Azərbaycanda davamlı enerji təminatının mühüm xüsusiyyətləri. Elmi məqalə. AMEA Fəlsəfə İnstitutu - Elmi əsərlər 2023 №2/41 .ISSN 2219 9810http://scientificworks. az/elmieserler_pdf/elmi_eserler_2_(41)_2023/12.pdf
5. Tahirli F.İ. Azərbaycanın cənub regionunda davamlı inkişaf siyasəti. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası - Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Elmi məqalə. UNESCO 2023 №03 (83). ISSN 2309-1347 https://dia.edu.az/wp-content/uploads/2023/12/3-83-2023-272seh-.pdf
6. Tahirli F.İ. Davamlı inkişaf cəmiyyət və təbiətin qarşılıqlı əlaqəsi kimi. Elmi məqalə. "Kaspi" Geosiyasi Araşdırmalar Mərkəzi - Geostrategiya. Mart-aprel 2023, №02 (74). ISSN: 2664-4975https://www.geostrategiya.az /pdf/2023/0274.pdf

7. Tahirli F.İ. Davamlı inkişafın regional xüsusiyyətləri. Elmi məqalə. UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası - İnsan və Biosfer (MaB – YUNESKO). Azərbaycan Milli Komitəsinin əsərləri. 2020, №15. ISSN 2079-3898
8. Tahirli F.İ. Effektiv İdarəetməyə nail olmaq üçün Davamlı İnkişaf Göstəricilərindən istifadə. Elmi məqalə, Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji Xəbərləri 2023 №62. ISSN 1682-9123 https://oyu.edu.az/uploads/ journals/oyu.edu.az_ 1703829955.pdf
9. Tahirli F.İ. Regional təhsilin rəqəmsallaşdırılmasının əsas istiqamətləri. Konfrans materialı. Azərbaycan Respubilkası Elm və Təhsil Nazirliyi Mingəçevir Dövlət Universiteti-yeni dövrdə təhsil və tədqiqat fəaliyyəti: reallıqlar və çaörışlar 11-16 dekabr, 2022, I cild https://mdu.edu.az/iscera-2022-bolmeler/
10. Tahirli F.I. The role of touristic potential of Lankaran-Astara economic region in sustainable development, Львівський торговельно-економічний університет - індустрія туризму і гостинності в центральній та східній європі, 2023, №8, ISSN: 2786-4820 http://journals-lute.lviv.ua/index.php/ tourism/article/view/1316/1242
11. Tahirli F.I. Exploring the key features of sustainable development in the southern region of Azerbaijan. Konfrans materialı CEO (İletişim, Ekonomi, Organizasyon) Sosyal Bilimler Kongresi 2023, VIII, ISBN: 978-625-98685-0-9 http://congress8.ceocongress.org/tr
12. Tahirli F.I. Political Agenda Formation System of Sustainable Development Indicators. Konfrans materialı. Kahramanmaraş İstiklal University Faculty of Humanities and Social Sciences - 3rd International symposıum of economics, business & social sciences'23 2023 III, ISBN 978-975-93937-2-4 https://www.isebuss.com
13. Тахирли Ф.И. Перспективы реализации целей устойчивого развития в Южном регионе Азербайджана. Elmi məqalə. Вопросы Истории - Ежемесячный журнал. 2023 10 (01). ISSN:0042-8779 https://elibrary.ru/contents. asp?id=54731510

Dissertasiyanın müdafiəsi "17" oktyabr 2024-cü il tarixində saat "11:00"-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən BFD 2.30 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı ş., Lermontov küç., 74

Dissertasiya işi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "17" sentyabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 11.09.2024
Kağızın formatı: A5
Həcm: 36.973
Tiraj: 80